BUILDING TRUST

MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# Sika® Separol® S-3

Dəmir, plastik və parlaq səthli qəliblər üçün qəlib yağı

## TƏSVİR

Sika® Separol® S-3, istifadəyə hazır, mineral yağ tərkibli, qəlib ayırıcı yağdır. Qəlib ilə yeni yerləşdirilmiş sement qarışımı vəya beton arasında xüsusi təbəqə yaradaraq, beton səthinin hamar bitişli olmasını və qəlibdən asanlıqla ayrılmasını təmin edir.

## İSTİFADƏ YERLƏRİ

- Hamar, hopdurucu olmayan və az hopduruculu qəliblərdə
- Dəmir, plastik, parlaq diktlər(plywood) qəliblərində
- Daha səmərəli forma işləri tələb olunan tətbiqlərdə

## ÜSTÜNLÜKLƏRİ

- Asan və təmiz qəlibləmə işləri
- Qəlibin ömrünü artırması
- Daha hamar və yaxşı beton görüntüsünü təmin etməsi
- Beton səthinə az bulaşaraq görütüsünə mənfi təsir etməməsi
- Qəlib və işçilik maliyyətlərini azaltması
- Seyrəldilmədən istifadəsi
- Asan tətbiq olunması

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

AZS sertifikatı

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Mineral yağ və performans artırıcı əlavələr |
| **Qablaşdırma** | 20 lt |
| **Görünüş və rəng** | Sarı şəffaf, maye |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 24 ay. |
| **Saxlama Şərtləri** | Məhsul orijinal, açılmamış və zədələnməmiş qablaşdırmada +5°C ilə +35°C arasında temperaturda, birbaşa günəş işığından qorunaraq düzgün şəkildə saxlanmalıdır. |
| **Sıxlığı** | 0,86±0,02 kg/l (+20°C-də) |
| **Özlülük** | 29-36 cp (+20°C-də) |

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Sərfiyyat** | ▪ Hopdurucu qəlib səthlərində (taxta,dikt) ~50 gr/m² <br> ▪ Hopdurucu olmayan (dəmir, plastic) ~25gr/m² |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

# DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Qəlib yağını tətbiq etməzdən əvvəl, qəliblər quru və təmiz olmalı, sement və pas qalıqlarından təmizlənməlidir.
- Sika® Separol® S-3, istifadəyə hazır qablaşdırılmışdır, qarışdırmağa ehtiyac duymur, istifadədən əvvəl qablaşdırmanı çalxalayın.
- Tətbiq fırça, rulon və ya sprey ilə bir homojen qatda həyata keçirilə bilər. Maksimum fayda əldə etmək üçün məhsulun yüksək təsirli və məhsuldar performansını qoruyub saxlanması üçün çox incə təbəqə püskürtmə ilə tətbiq edilməlidir.
- Yüksək udma qabiliyyətinə malik formada ikinci qat tətbiqi tələb oluna bilər.
- Maksimum performansı təmin etmək üçün məhsulun yalnız nazik bir filmi tələb olunur. Həddindən artıq tətbiq ləkələrə səbəb ola bilər. Hər hansı bir artıqlıq bir parça və ya süngər ilə silinməlidir.
- Hər bir layihə üçün tətbiq prosedurunu optimallaşdırmaq üçün ilkin sınaqlar tövsiyə olunur.

# ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

# TƏTBİQ TƏLİMATLARI

### SƏTHİN KEYFİYYƏTİ/ÖN HAZIRLIQ

Sika® Separol® S-3 ilə örtüləcək bütün səthlər təmiz və kirdən, tozdan, yağdan, beton və ya məhlul qalıqlarından təmizlənməlidir. Dəmir qəlib quru olmalıdır. Qəlib ayırıcıdan istifadə etməzdən əvvəl istifadə edilmiş formalar təmizlənməlidir.

### AVADANLIQ

- İncə telli fırça
- Diyərcəkli fırça
- Aşağı təzyiqli püskürtmə avadanlığı

### QARIŞDIRMA

Yekcins mineral yağ, qarışdırmağa ehtiyac duyulmur.

### TƏTBİQ

Fırça, rolik, aşağı təzyiqli püskürtmə avadanlığından istifadə edərək tək qat, yekcins, kəsintisiz olaraq tam qəlib sahəsini əhatə edərək tətbiq edilməlidir. Memarlıq və estetik beton bitişləri üçün istifadə miqdarının tənzimlənməsi tələb oluna bilər. Bütün hallarda tətbiq etməzdən əvvəl ilkin sınaqlar aparılmalıdır.

### AVADANLIQ TƏMİZLİYİ

Bütün tətbiq alətlərini və avadanlıqlarını həllediçili təmizlik vasitələri, solvent tərkibli kimyəvilər ilə təmizlənməlidir. Sərtləşmiş material yalnız mexaniki olaraq təmizlənir.

# HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12